**Kazus**

Ərizəçilər keçmiş polis işçiləridir. Onlar müəyyən Dövlətdə silahlı iğtişaşın yatırılmasına cəlb edilmişlər və buna görə onlara sosial müavinətin ödənilməsi nəzərdə tutulmuşdur. Onlara olan borcun (sosial müavinətin) ödənilməsini təmin etmək üçün ərizəçilər Daxili İşlər qurumunun adiyyəti orqanını məhkəməyə verdilər. Məhkəmənin qərarı ilə həmin vəsaitin (sosial müavinətin) onlara ödənilməsi qət edildi. Lakin uzun müddətdir ki, həmin qərar büdcədə vəsaitin çatışmaması səbəbindən Maliyyə Nazirliyi tərəfindən icra edilmir. Ərizəçilər onlara olan sosial-müavinət borcunun ödənilməsinin gecikdirilməsinə etiraz əlaməti olaraq şəhərin mərkəzi meydanında mitinq təşkil edəcəklərinə dair müvafiq icra hakimiyyəti orqanını məlumatlandırdılar. Mitinqin başlama tarixi olaraq 30 avqust 2003-cü il göstərildi və qeyri-müəyyən müddətdə davam edəcəyi bildirildi. İcra hakimiyyəti 24 sentyabr 2003-cü il tarixdə mitinqin təşkilinə etiraz etdi və mitinqin şəhərin kənarında yerləşən teatrın qarşısında keçirilməsini təklif etdi. Buna baxmayaraq, 30 sentyabr 2003-cü ildə şəhərin mərkəz meydanında mitinq təşkil edildi və 100-ə qədər iştirakçı iştirak etdi. Onlar çadırlar qurdular və orada gecə-gündüz qaldılar. Onlar tələblərini və tənqidlərini əks etdirən plakatlar nümayiş etdirdilər. 3 Oktyabr 2003-cü ildə Şəhər İcra Hakimiyyəti yerli daxili işlər qurumunun müraciəti ilə "əhalinin kütləvi toplaşdığı yerdə terrorist aktlarının törədilə bilməsi" əsası ilə 24 sentyabr 2003-cü il tarixli qərarını ləğv etdi. Qərarda yerli daxili işlər qurumubdab mitinqi dağıtmaq və mərkəzi meydanda ictimai qaydanı bərpa etmək tələb olundu. 11 oktyabr 2003-cü ildə Məhkəmə mitinqi digərlərinin hüquqlarını pozduğu üçün qanunsuz hesab etdi. Məhkəmə müəyyən etdi ki, bu mitinq vətəndaşların ictimai nəqliyyatdan və kinoteatrdan istifadəsini və məmurların meydanda yerləşən inzibati binalara daxil olmasını maneəçilik yaratmışdır. Şüarların səsləndirilməsi də məmurlara işinə əngəl törədir. Bundan başqa yerli daxili işlər qurumu törədilə biləcək terror aktı haqqında əməliyyat məlumatı da əldə etmişdi. Məhkəmə eyni zamanda qeyd etmişdir ki, icra hakimiyyəti onlara şəhər kənarında yerləşən teatrın qabağında toplaşmağa icazə vermişdi, bununla belə, mitinq həmin qərarı pozmaqla mərkəzdəki meydanda keçirilmişdir. Nəhayət, məhkəmə müəyyənləşdirdi ki, ictimai yığıncağların qeyri-müəyyən müddətdə keçirilməsi qanunvericilikdə nəzərdə tutulmamışdır. Videoyazılardan görünür ki, həmin gün polis mitinqçilərə dağılmağı əmr edir. Onlar mitinqi dayandırmadıqlarından polis onların qurduğu çadırları demontaj eləməyə başladı. Bununla belə, onlar çadırlarını yenidən quraşdıraraq mitinqlərinə davam etdilər. 18 noyabr 2003-cü ildə Ali Məhkəmə həmin qərarı qüvvədə saxladı. 2003-cü ildə Dekabr ayının qeyri-müəyyən günündə etirazçılar mitinqi dayandırdı.

Ərizəçilər AİHM-ə müraciət edərək hakimiyyət qurumları tərəfindən mitinqin keçirilməsinə qoyulan məhdudiyyətlərin onların Konvensiyanın 11-ci maddəsini pozduğunu iddia etdilər. Ərizəçilər iddia etdilər ki, əgər terrorist aktının həyata keçirilməsi riski var idisə, həmin risk elə teatrın qabağında keçirilən mitinqdə də ola bilərdi. Terrorist aktının həyata keçirilməsinə dair qorxuya istinad mitinqi şəhərin mərkəzində kənarına dağıtmaq niyyətindən başq bir şey deyildir. Ərizəçilər bildirdilər ki, onların mitinqi ictimai nəqliyyatdan və ya yaxınlıqdakı kinoteatrdan istifadəyə hər hansı şəkildə maneəçilik törətməmişdir. Onların mitinqi dinc, səssis həyata keçirilmişdir. Onlar dövlət qurumlarının işinə də maneəçilik törədilməmişdir, belə ki, şüarlar hər hansı şəkildə ucadan səsləndirilməmiş, ümumiyyətlə, mitinq səssiz keçirilmişdir. Sadəcə hökumətin qanunsuz hərəkətini tənqid edən plakatlar nümayiş etdirilmişdir.

Sizcə, Avropa Məhkəməsinin mövqeyi Konvensiyanın 11-ci maddəsinə münasibətdə necə olacaqdır.

*Hazırladı: Elnur Həsənov*